# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## VAKANSİYA ELANI

### Təminat şöbəsi—Xidmətçi

**Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycanda elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin şəffaflıq prinsipi çərçivəsində tənzimlənməsini, müəssisələrin fəaliyyətinin operativ və dəqiq təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.**

**VƏZİFƏ ÖHDƏLİKLƏRİ:**

- Ona həvalə edilmiş mətbəx otağının, mətbəx otağındakı avadanlıqlarının və qab-qacaqların təmizliyini qoruyur;
- İclaslar zamanı masaların, iclas otaqlarının təmizliyini həyata keçirir və iclas iştirakçılarına tələb olunan qida məhsullarını (çay, qəhvə və s.) çatdırır;
- İşçilərin çay fasiləsi zamanı çay tələbatını təmin etmək üçün vaxtlı-vaxtında çay hazırlıqlarını həyata keçirir;
- Şöbə müdiri tərəfindən digər tapşırılan işləri yerinə yetirir;
- Ona etibar edilmiş əmlaka, maddi və digər sərvətlərə görə cavabdehlik daşıyır;
- Əməyin mühafizəsi, əmək-icra intizamı, yanğından mühafizə normaları, texniki təhlükəsizlik, sanitariya-gigiyena qaydalarına riayət edir;
- Sanitar-gigiyenik ləvazimatlar bitdikdə əlavə olunmasını həyata keçirir;
- Agentliyin inzibati binasında olan arxiv və anbar otaqlarının təmizliyini yerinə yetirir;
- Ümumi təmizliyə nəzarət edir və icrası ilə bağlı tədbirlər görür;
- Əmək müqaviləsi və şöbənin Əsasnaməsi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir və hüquqları həyata keçirir.

**TƏLƏBLƏR:**

- Müvafiq sahə üzrə azı 1 il iş təcrübəsi;
- Azərbaycan dilində səlis danışıq (başlanğıc səviyyədə rus dili arzuolunandır);
- Yaş həddi 25-45 aralığı;
- Səliqəli və məsuliyyətli olmalı;
- Kollektivdə işləmək və ünsiyyət qurmaq bacarığı.

**DİGƏR:**

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma.
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini vacancy@regulator.gov.az poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Təminat şöbəsinə xidmətçi**) qeyd etməniz tələb olunur.